# LERİK RAYONUNDA KARTOF YETİŞDİRİLMƏSİ ƏNƏNƏSİNİ TƏKMİLLƏŞDİRMƏK ÜÇÜN KARTOF NÜMAYİŞ SAHƏLƏRİ

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

## "EU4LANKARAN" LAYİHƏ XƏBƏRİ

MAY 2024

3-cü hissə




*Açılış tədbiri, Lerik rayonu, Kəlvəz kəndi*

Hazırda davam edən "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstək" layihəsi Lerik rayonunun bir sıra kəndlərində 1 hektar ərazidə ilk eksperimental kartof nümayiş sahələrinin yaradılması ilə əhəmiyyətli bir addım atıb. Lerik rayonu Lənkəran-Astara İqtisadi Rayonunda və Bakıda yüksək qiymətləndirilən dağ kartofu istehsalına görə tanınır. Lakin rayonda aparılan kartof dəyər zənciri təhlili nəticəsində məlum olub ki, fermerlər becərdikləri kartofun sortunu bilmirlər, keyfiyyətli və məhsuldar olmayan toxumları İran və Cəlilabaddan alırlar.



*Ənənəvi kartof əkilməsi üsulu*

Rayonda əhəmiyyətli məhsul olan kartof istehsalının təkmilləşdirilməsi üçün Kəlvəz, Yuxarı Amburdərə, Rəzqov, Kələxan, Hiveri, Məhləabad kəndlərindən 8 fermerin ərazisini əhatə edən 1 hektar kartof nümayiş sahəsi istifadəyə verilmişdir. Bu fermerlər ümumilikdə 3155 kq toxumluq kartof alıblar. Bunlara, dördü yerli (Sevinc, Çənlibel, Vaqif, Əmiri) və dördü xarici (Kolombo, Orkestr, Sorayya, Bernina) olmaqla 8 sort daxildir. Bu sortlar dağlıq ərazilərdə yetişdirilmə üçün yararlılığına görə seçilib. İlk dəfə olaraq hər sahədən torpaq nümunələri sınaqdan keçirilib və sınaq nəticələrinə əsasən vegetasiya dövründə hər sorta düzgün qulluq üzrə fermerlər üçün təlimat cədvəlləri hazırlanıb. Bu təşəbbüs birgə səy kimi daha da inkişaf etdirildi və Lerik Kartof İstehsalçıları Qrupu formalaşdırıldı. Üzvlərə becərmə, qulluq və məhsul yığımından sonrakı mərhələlər haqqında davamlı dəstək və məlumat vermək üçün mütəxəssislərlə WhatsApp qrupu yaradılıb.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ



*Kartof əkilməsinin fermerlərə praktiki şəkildə izah edilməsi*

6 aprel 2024-cü il tarixində Kəlvəz kəndində kartof nümayiş sahələri üçün açılış tədbiri keçirilib. Tədbirdə Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktor müavini, İnstitutun Lənkəran regional stansiyasının direktoru, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Lənkəran üzrə KOB dostu, Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru və əməkdaşları, kənd təsərrüfatı mütəxəssisləri və yerli fermerlər iştirak edib.



*Toxumluq kartofun mütəxəssis təlimatı ilə əkilməsi*

Açılış mərasimdən sonra Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktor müavini kartofun əkilməsi və becərilməsinin düzgün elmi üsullarına dair praktiki təlim keçirib. Bu təlim sessiyası fermerlərə kartof məhsuldarlığını artırmaq və dayanıqlı kənd təsərrüfatı təcrübələrini təşviq etmək üçün lazımi bacarıqlar təqdim edib. İstehsalçılar Qrupunun sədri Sahib Qurbanov qrupun bu təşəbbüsdən faydalanacağına və əldə etdikləri bilikləri yayaraq öz icmalarında multiplikator olacaqlarına və rayon üçün ən məhsuldar sortların yayılmasına köməklik göstərəcəyinə əmin olduğunu bildirib.

Layihə komandası institutun mütəxəssisləri ilə birlikdə sahələrin inkişafına davamlı olaraq nəzarət edəcək və eyni zamanda ekspert məsləhətləri verəcəklər. Nümayiş sahələri yerli fermerlər arasında innovasiya, bilik mübadiləsi və əməkdaşlığı təşviq etmək məqsədinə xidmət edir. Növbəti addımlar regionda meyvə və tərəvəz sektorunun rəqabət qabiliyyətinin artırılmasına töhfə verərək müasir əməkdaşlıq mərkəzinin yaradılması, kartofun brendləşdirilməsi və marketinqini əhatə edir.



*Fermerlər tərəfindən toxumluq kartofun əkilməsi*

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*